# Bir parça buludda Bir dəniz yükü...

**Tale yazısı**

Keçən əsrin 50-ci illərindən sonra müharibə sözü körpələrin, yeniyetmə gənclərin nağıl aləmində, ata-babalarının xatirələrində yer alırdı. Müharibənin dəhşətli məğlub və qələbə söhbətləri acılı-şirinli xatirələrdə söylənilir, dinlənilirdi. Müharibə sözü körpələrin dilində dəhşətlə səslənərdi... Hər kəs bu sözün arxasındakı qan, ölüm qoxusunu xatirələrdəki söhbətlərdən öyrənərdi. Heç kəsin ağlına belə gəlməzdi ki, əvvəlcə övladları, bir 30 ilə yaxın vaxt ölçüsü ilə də nəvələri müharibənin canlı şahidləri olacaqlar.

Tale insan ömrünə ta doğuluşdan yazılır. Bunu Tanrıdan başqa heç kəs nə oxuya bilər, nə də yaza. Əgər insan oxuya bilsəydi, o alın yazısını əvvəlcədən dəyişər, öz istəyinə uyğun şəkildə ömür sürərdi. Bəlkə də o zaman həyat bayağılaşar, yaşamağın mənası itərdi... Ona görə də ta qədimdən belə məsəl yaranmış: Tanrı verib ömrü bizə, özü bilən məsləhətdir...

Tanri verən ömrü yaşayır hər kəs. Kimi daha çox sınaqlara çəkilir, kimi isə sınağa belə layiq olmadığı üçün hamar yolun yolçusu olar; çətin yol sınaqları ilə tanıdar, yaddaşlara salar qəhrəmanını. Hamarlıq isə elə həyatda da hamar yolçuların həyatının izini saxlamaz!

Çeyhun Nüsrət oğlu Şalıyev isə elə bir ömür yaşadı ki... Baharömürlülüyünə rəğmən tarixin xronologiyasında adını əks etdirdi.

Ceyhun Şalıyev 1994-cü ildə Gəncə şəhərində dünyaya göz açıb. Atası Nüsrət Şalıyev 1-ci Qarabağ müharibəsi veteranıdır. Anası Sədaqət xanım əslən qəbələlidir.

Nüsrət Şalıyev öz ailəsi ilə birlikdə Gəncə şəhərindən Rusiya Federasiyasının Voronej şəhərinə köçür və həyatına davam edir.

Ceyhun 4 yaşında Voronej şəhərində bağçaya gedir. 6 yaşında isə həmin şəhərdə 73 saylı məktəbdə ibtidai sinfə qəbul olunur. Onu da qeyd edək ki, Ceyhun istedadlı şagird olduğu üçün məktəbin birbaşa 2-ci sinfinə daxil olur. Hələ dərs ilinin ilk günündən "Mən azərbaycanlıyam!"-deyərək valideynlərini məktəb kollektivinə tanıtmışdı.



2007-ci ildə Nüsrət Şalıyev avtomobil qəzasına düşür və ailəsilə birgə yenidən Azərbaycana qayıdır. Ceyhun Bakıdakı 132-134 saylı məktəbdə təhsilini davam etdirir. Məktəb təmirə dayandığı üçün son sinifləri o, Bakının Bakıxanov qəsəbəsindəki 94 saylı məktəbdə oxuyur. 2011-ci ildə 16 yaşında yüksək balla Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olur. 4 il tələbə həyatı yaşayır. Haqq-ədalətin qoruyucusu, müdafiəçisi kimi, savadlı bir kadr kimi yetişir və həyata üz tutur ki... Məmməd Araz təbirincə desək:

Haqq bir daşdır, nahaqq - dərə, bir ağ dərə ...

*Qar altında yaz gözləyən əkin kimi,*
*Ədalətə heykəl yonsan əklil kimi,*
*Doğruya qan, şərə qalxan vəkil kimi,*
*Gərək ollam, qoru məni,yaşat məni!*

Vətənpərvərlik insanın daxili zənginliyidir.

Hələ bağçaya getdiyi dövrdə şəkillər çəkərdi və onun əl işlərini müəllimləsi hər gün anasına verərdi. Maraqlı şəkilləri vardı: Bütün ölkələrin bayraqlarını çəkərdi; təyyarə şəkilləri çəkməklə bərabər öz təxəyyülündə yaratdığı təyyarələrin də şəklini çəkərdi ki, bu da müəllimlərin diqqətini cəlb edərdi. Orta məktəb illərində şerlər, nağıllar düşünüb yazardı. Sonralar valideynləri o yazdıqlarını kitab kimi dərc etdirmək istəyəndə Ceyhun o yazıların uşaqlıq düşüncələri olduğunu deyərək kitab nəşrinə razılaşmamışdı. Və əfsuslar olsun ki, həm də o yazılar qorunub saxlanılmamışdır. Sadəcə məktəb illərində onun fənn yarışlarında, olimpiadalarda qazandığı Fəxri fərmanlar bu gün də saxlanılmaqdadır. Ceyhun xalqına, millətinə xas vətənpərvər idi. Daxili zənginliyi onun Vətən məhəbbətinin əksi idi. Təsadüfi deyil ki, valideynləri bir müddət Azərbaycanda yaşadıqdan sonra yenidən Voronejə qayıdarkən o, Azərbaycanda qalıb oxumağı, xalqının yanında olmağı seçmişdi. Valideynlərindən uzaq yaşamanın bütün çətinliklərini dərk etsə də, öz arzu və istəklərinin arxasınca getdi. Vətənini, xalqını sevdi və onun torpaqlarının daimi keşikçisi olmaqla bərabər, ədalətli bir qanun müdafiəçisi kimi xalqına xidmət etmək istədi. Və etdi də...

2015-ci ildə həqiqi hərbi xidmətə çağrıldı. Əsgəri xidmətini 1 ay Lənkəranda təlim keçdikdən sonra Ağdam-Xocavənd istiqamətində davam etdirdi. 2016-cı ilin Aprel döyüşlərində Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etdi. 4 gün bu döyüşlərdə döyüşdü. Əsgəri xidmətini başa vurduqdan sonra yenidən Bakiya döndü. Valideynlərinin təkidinə baxmayaraq Voronejə dönmədi və Bakıda qalıb işlədi. İxtisasına uyğun işə düzələ bilməsə də müxtəlif təşkilatlarda əmək fəaliyyətinə başladı. Əvvəlcə "Kontakthome" şirkətində, ictimaiyyətlə əlaqə cəmiyyətində işlədi. Son iki il idi ki, "Azersell Telekom" MMC-də işləyirdi.

Körpəliyində Vətən həsrəti çəkən Ceyhun vətəninin gözəlliklərinə məftun idi. İşğal altında olan torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərin öz yurdlarına dönməsi onun ən ümdə arzusu idi. Məğlub sözünün belə xalqının adı qarşısında səslənməsi onun ağrılı tərəfi idi. Ceyhun həmişə torpaqlarımızın azadlığını düşünür və özünü hər an döyüşlərə hazır sanardı. Atasının yarım qalmış arzularını həyata keçirmək, silahdaşlarının, şəhidlərin öcünü almaq onun daxili təlatümü idi.

**Vətən oğul deyərsə...**

Ceyhun son dəfə ailəsi ilə 2019-cu ilin dekabrında görüşmüşdü, məzuniyyət götürüb işdən Voronejə getmişdi. Sirrini-sözünü yalnız anasına ürəklə deyən Ceyhun əzizlərilə həmişə görüntülü əlaqə saxlasa da onları real görmək və görüşməyin şirinliyini bir daha yaşadı. Ancaq bilməzdi ki, ailəsini son dəfə real görür, onlarla vaxt keçirir, uşaqlığının xatirələri olan Voronejlə vidalaşırdı.

2020-ci ilin iyul hadisələri, Polad Həşimov başda olmaqla 12 nəfər igid döyüşçülərimizin şəhid olması onu da daxilən sarsıtmışdı və o hər an özünü vətənin müdafiəsinə hazır sanırdı. Sentyabr ayında səfərbərliklə bağlı ona hərbi komissarlıqdan gələn zəngi ruh yüksəkliyi ilə qarşıladı və sentyabrın 21-dən hərbi təlimlərin iştirakçısı oldu.

**(Ardı 7-ci səhifədə).**

# Qüdrətli dövlətçilik əsərinin müəllifi

Heydər Əliyev fenomeni... Dahi şəxsiyyət haqqında, onun sidqi qəlblə bağlı olduğu Azərbaycanı uğrunda usanmadan "mübarizəsi" haqqında saatlarla danışmaq olar. Bəli, məhz "mübarizəsi"... Çünki dövlətini müstəqilliyə, Azərbaycan Dövlətçiliyinin yaradılmasına aparan yolu keşməkeşli olub. Hər növbəti il Heydər Əliyev dühasının böyüklüyünün, əzəmətinin bir daha şahidi oluruq. Zaman ulu öndərin siyasi baxışlarına daha dərin məna qatır, illər keçdikcə Onun Vətənimizin bu gününə və gələcəyinə sarsılmaz tellərlə bağlı olduğunu daha aydın görürük.

Bir qədər geri qayıtmaq istəyirəm, ötən əsrin ortalarına.... Çünki Heydər Əliyev kimi tarix yazmış şəxsiyyətin ictimai-siyasi fəaliyyətini yalnız müasir Azərbaycanla bağlamaq sadəcə absurddur. Ümumiyyətlə, Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü ulu öndərin şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. O, bu quruculuğa hələ 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlməzdən də əvvəl, XX yüzilliyin 40-cı illərindən başlamışdı. Bu illərdə Azərbaycanın hüquq-mühafizə oqranlarında fəaliyyətə başlayan Heydər Əliyev qarşısına çıxan və ya çıxarılan bütün maneələri dəf edərək Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinədək ucaldı. Onun bu dövrdə, son dərəcə gərgin şəraitdə gördüyü işlər nəticəsində o zaman qısaca KQB dediyimiz Dövlət Təhlükəsizliyi Komitəsinin xalqımızın düşmənlərindən təmizlənməsi sahəsində ciddi addımlar atıldı və məhz Heydər Əliyevin sayəsində ilk dəfə olaraq azərbaycanlıların fəal surətdə təhlükəsizlik orqanlarında işə cəlb olunmasına başlandı. Heydər Əliyevin KQB-ni azərbaycanlılaşdırmaq sahəsindəki gördüyü işlər Vətən və xalq qarşısında adi xidmətlər deyildi! O, milli əhvali-ruhiyyəli azərbaycanlıları Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, ziyalılarımıza qarşı yönəlmiş növbəti təqiblərin qarşısını alırdı.

Ulu öndər bir çox siyasətçi müasirlərindən fərqli olaraq təkcə öz dövrünün deyil, gələcəkdə baş verəcək ictimai-siyasi proseslərin axarını müəyyən etmək, sezmək istedadına malik idi. Heydər Əliyev təkcə Gələcəyi görmür, həm də həmin Gələcəyi yaradır, sabaha doğru gedən yolu açırdı. Bu yolda atdığı addımlarından biri də ötən əsrin 70-80-ci illərində yüzlərlə azərbaycanlı gənci SSRİ-nin aparıcı ali məktəblərinə təhsil almağa göndərməsi idi. Bir fakta diqqət çəkmək istəyirəm - 1970-1985-ci illərdə azərbaycanlı gənclər Sovet İttifaqının tanınmış 170 ali təhsil ocağında oxumuşdu. Hər il təhsil almaq üçün Azərbaycandan kənara ən azı 800 tələbə yola salınırdı. Məhz həmin gənclər müasir Azərbaycanda müxtəlif sahələrdə ali təhsilli mütəxəssis, bacarıqlı kadr kimi fəaliyyətə başladılar. Məhz onlar Azərbaycan Respublikasının daxil olacağı yeni dövrün problemlərini həll etməli idilər.

Tarix göstərir ki, bir dövlətin müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir mürəkkəb mərhələdə dövlətin xilası məhz vətənpərvər liderlərdən asılı olur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşıyırdı. Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətləndi.

Ümummilli lider milli maraqlara əsaslanan, xalqın, dövlətin mənafeyini əks etdirən fəaliyyəti ilə ona olan ümidləri doğrultdu. Heydər Əliyev müstəqil Azərbaycanın rəhbəri seçildikdən sonra qısa müddət ərzində nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı; Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu; İlk parlament seçkiləri keçirildi; Referendum yolu ilə Konstitusiya qəbul edildi; Neft müqavilələri imzalandı, Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu, respublikamızın beynəlxalq əlaqələri formalaşdı - bunların hamısı ümummilli liderin misilsiz xidmətləri sayəsində həyata keçdi.

Ulu öndər, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində əsaslı işlər gördü: Məhkəmə islahatları həyata keçirildi, Konstitusiya Məhkəməsi, Ombusman təsisatı və digər mühüm institutlar yaradıldı.

Heç kimə sirr deyil ki, müstəqilliyin ilk illərində hakim qüvvələrin səriştəsiz fəaliyyəti nəticəsində hüquq-mühafizə orqanlarının qanuni vəzifələrini həyata keçirə bilməməsi ictimai həyatın ən müxtəlif sahələrində özbaşınalığın baş almasına, cinayətkar ünsürlərin rahat fəaliyyətinə münbit şərait yaratmışdı. Lakin ulu öndərimizin islahatları nəticəsində 1993-cü ilin ikinci yarısından başlayaraq, respublikamızda cinayətkarlıq və hüquq pozuntularına qarşı mübarizə elan edildi. Heydər Əliyevin nəzarəti altında Azərbaycan Prokurorluğunun da öz xalqının və müstəqil dövlətçiliyin maraqlarına xidmət edən qurum kimi formalaşması mümkün oldu. Düzdür, respublikamızın milli prokurorluğunun yaranması Azərbaycanda 1918-ci ildə dövlət müstəqilliyinin əldə olunması ilə bağlıdır. Lakin məhz xalqımızın ümummilli liderinin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları gedişində görülən tədbirlər sayəsində Azərbaycan Prokurorluğunun fəaliyyətində əsaslı dönüş yaradılıb, prokurorluğa qarşı tələbkarlıq artırılıb, onun kadr sistemi sağlamlaşdırılıb, prokurorluğun maddi-texniki təminatı daha da möhkəmləndirilib.

Ümummilli lider prokurorluq da daxil olmaqla, bütün hüquq-mühafizə orqanlarında qanunun aliliyinin qorunmasına xüsusi əhəmiyyət verib. Bununla bağlı ulu öndərin çıxışlarının birindən sitat gətirmək istəyirəm: "Prokurorluq orqanlarının əsas hədəfi qanunun aliliyinin təmin olunmasıdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir".

Qeyd edim ki, bununla yanaşı ulu öndər Prokurorluq orqanına hüquq-mühafizə orqanlarının içərisində xüsusi yer ayırır, qurumun fəaliyyətini yüksək qiymətləndirirdi. Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaqda dahi lider demişdi: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma, eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Azərbaycan Prokurorluğunun inkişaf etməsində dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram". Bu sözlər prokurorluq orqanlarının əməkdaşlarının işinə verilən yüksək qiymət və göstərilən etimad kimi dəyərləndirilə bilər.

Öz adımdan isə demək istəyirəm ki, ulu öndərimiz illər öncə qurduğu siyasi kurs nəticəsində hazırda prokurorluq sistemində yüksək peşəkarlığa malik, sağlam düşüncəli, mənəviyyatlı, milli dəyərlərə və hüquqi dövlət prinsiplərinə hörmətlə yanaşan kadrlar korpusu formalaşıb. Prokurorluq işçilərinin fəal vətəndaşlıq mövqeyi ildən-ilə yüksəlir.

Heydər Əliyev dühası uzaqgörənliklə ölkəmizin inkişaf yolunu müəyyənləşdirdi, bütün sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları istiqamətində möhkəm bünövrə qoydu. Onun yolu ilə gedən hörmətli Prezident İlham Əliyevin rəhbərliyi altında Müstəqil Azərbaycan bütün sahələrdə əhəmiyyətli uğurlar əldə etdi. Son illərdə Azərbaycanın əldə etdiyi qələbələr, torpaqlarımızın azad edilməsi, Azərbaycanın beynəlxalq aləmdə sözünü deyə bilməsi ulu öndərin qoyduğu yolla inamla irəliləmək, Heydər Əliyev siyasətini daha yüksək səviyyədə davam etdirmək sayəsində mümkün olmuşdur.

**Süleyman SÜLEYMANOV,**
**Qəbələ rayon prokurorunun böyük köməkçisi, baş ədliyyə müşaviri.**